Oktyabrın 4-də elm və təhsil naziri Emin Əmrullayev İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı Elm və Təhsil Nazirliyi ilə ICESCO arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə edilib.

Elm və təhsil naziri Emin Əmrullayev ICESCO ilə əməkdaşlıq çərçivəsində tələbə mübadiləsi proqramlarının təsis edilməsinin əhəmiyyətini vurğulayıb, üzv dövlətlərin milli-mənəvi dəyərlərinin təbliğ edilməsində bu proqramların mühüm rola malik olduğunu diqqətə çatdırıb.

Görüş zamanı Şuşa şəhərinin 2024-cü il üzrə ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" seçilməsi ilə əlaqədar burada şagirdlər üçün olimpiada və incəsənət festivallarının keçirilməsi də müzakirə olunub.

Bununla yanaşı, Emin Əmrullayev Azərbaycanın STEAM əsaslı tədrisə keçid prosesindən bəhs edib, bu təcrübənin təşkilata üzv dövlətlərlə bölüşülə biləcəyini vurğulayıb.